# AzAK T005-04

## Sınaq laboratoriyalarının akkreditasiya sahəsinin hazırlanması üçün təlimat

## 1. MƏQSƏD

Bu sənəd akkreditasiya sahəsini təqdim edən sınaq laboratoriyaları, akkreditasiya sahəsinin qiymətləndirilməsini həyata keçirən qiymətləndiricilər, texniki ekspertlər və AzAK-ın kuratorlarının istifadəsi üçün hazırlanmışdır.

## 2. ƏHATƏ DAİRƏSİ

Bu sənəd AzAK tərəfindən akkreditasiya edilən sınaq laboratoriyalarının akkreditasiya sahəsinin hazırlanması məqsədi ilə ümumi qaydaları müəyyən edir.

## 3. ƏLAQƏLİ SƏNƏDLƏR

- AzAK F005-02 Sınaq laboratoriyalarının akkreditasiya sahəsinin forması.

## 4. TƏTBİQ, ÜMUMİ QAYDALAR

4.1. Akkreditasiya sahəsi Azərbaycan dilində tərtib olunmalıdır, Azərbaycan dilində qarşılığı olan əcnəbi sözlərdən mümkün qədər istifadə edilməməlidir.

4.2. Akkreditasiya sahəsinin layihəsi AzAK F005-02 forması istifadə edilərək tərtib edilməlidir.

4.3. Sözlər arasında, vergül (,) və nöqtədən (.) sonra boşluq buraxılmalıdır. Məsələn: “Sıxlıq. Nisbi sıxlıq”, “pH, qatılığın təyini” və s.

4.4. Akkreditasiya sahəsində təkrar üçün “-----“ və s. kimi işarələrdən istifadə edilməməli, başqa sətirə istinad edilməməli, lazımi məlumat aydın şəkildə yazılmalıdır.

4.5. Akkreditasiya sahəsinin “Sınağı aparılan məhsulun/materialın adı” bölməsində sınağı aparılan məhsulun/materialın adı yazılarkən məhsul adları (“və s.”, “bu kimi”, “buna bənzər” kimi ifadələrdən istifadə yolverilməzdir) qruplaşdırıla bilər (eyni sınaq qruplaşdırılmış bir neçə məhsula aiddirsə). Məsələn:

| **Sınağı aparılan məhsulun/materialın adı** *Materials/Products tested* | **Sınağın adı** *Type of test* | **Sınaq Metodu (Milli, Beynəlxalq Standartlar, qeyri-standart metodlar)** *Test methods (National, International Standards, non-standard methods)* |
|---|---|---|
| **1** | **2** | **3** |
| Nişasta, nişasta şərbəti | Nəmliyin təyini | ГОСТ 7698-93 |

Əgər sınaq məhsul qrupuna aid olan ayrı-ayrı məhsullara aiddirsə, həmin məhsulun/materialın adı və sınağın adı ayrı qeyd olunmalıdır. Məsələn:

| **Sınağı aparılan məhsulun/materialın adı** *Materials/Products tested* | **Sınağın adı** *Type of test* | **Sınaq Metodu (Milli, Beynəlxalq Standartlar, qeyri-standart metodlar)** *Test methods (National, International Standards, non-standard methods)* |
|---|---|---|
| **1** | **2** | **3** |
| Nişasta | Nəmliyin təyini | ГОСТ 7698-93 |
| Nişasta şərbəti | Reduksiyaedici şəkərin təyini | ГОСТ 33917-2016 |

"Sınağı aparılan məhsulun/materialın adı" bölməsində məhsul qrupu yazılıbsa, "Sınağın adı" bölümündə qeyd edilmiş sınaq bir və ya bir neçə məhsul istisna olmaqla bu məhsul qrupuna aiddirsə, "Sınağı aparılan məhsulun/materialın adı" bölməsində istisna olunan həmin məhsul və ya məhsulların adları mütləq qeyd olunmalıdır. Məsələn:

| **Sınağı aparılan məhsulun/materialın adı** *Materials/Products tested* | **Sınağın adı** *Type of test* | **Sınaq Metodu (Milli, Beynəlxalq Standartlar, qeyri-standart metodlar)** *Test methods (National, International Standards, non-standard methods)* |
|---|---|---|
| **1** | **2** | **3** |
| Meyvə, tərəvəz və onların emalı məhsulları. (Quru meyvələr istisna olmaqla) | Ekstraklarda çöküntü | ГОСТ 8756.9-2016 |

4.6. Akkreditasiya sahəsinin "Sınağın adı" bölümündə kimyəvi elementin adı ilə yanaşı işarəsi də yazılarsa, bu işarə mötərizə daxilində yazılmalıdır. Kimyəvi elementin tək adının yazılması kifayət deyil, yəni addan sonra "təyini", "miqdarının təyini" kimi ifadələrdən istifadə edilməlidir. Sınağın adı "Sınaq Metodu (Milli, Beynəlxalq Standartlar, qeyri-standart metodlar)" bölməsində qeyd olunmuş sənəddə yazıldığı kimi qeyd olunmalıdır. Sınağın adı bölümündəki ifadələr "sınağı", "təyini", "yoxlanılması" və bu kimi sözlərlə bitməlidir. Məsələn:

| **Sınağı aparılan məhsulun/materialın adı** *Materials/Products tested* | **Sınağın adı** *Type of test* | **Sınaq Metodu (Milli, Beynəlxalq Standartlar, qeyri-standart metodlar)** *Test methods (National, International Standards, non-standard methods)* |
|---|---|---|
| **1** | **2** | **3** |
| Üzüm şərabı | Misin (Cu) təyini | ГОСТ 30178-96 |
| | Dəmirin (Fe) təyini | |

4.7. Akkreditasiya sahəsinin "Sınaq Metodu (Milli, Beynəlxalq Standartlar, qeyri-standart metodlar)" bölməsində sınaq metodu kimi standart istifadə olunursa, standartın işarəsi və tarixi qeyd olunmalıdır. Məsələn:

| **Sınağı aparılan məhsulun/materialın adı** *Materials/Products tested* | **Sınağın adı** *Type of test* | **Sınaq Metodu (Milli, Beynəlxalq Standartlar, qeyri-standart metodlar)** *Test methods (National, International Standards, non-standard methods)* |
|---|---|---|
| **1** | **2** | **3** |
| Beton qarışıqları | Orta sıxlığın təyini | ГОСТ 10181-2014 |
| | Plastikliyin təyini | |

4.8. Əgər qeyri-standart metod istifadə olunursa, bu sənədin nömrəsi, təsdiq tarixi göstərilməlidir.

| **Sınağı aparılan məhsulun/materialın adı** *Materials/Products tested* | **Sınağın adı** *Type of test* | **Sınaq Metodu (Milli, Beynəlxalq Standartlar, qeyri-standart metodlar)** *Test methods (National, International Standards, non-standard methods)* |
|---|---|---|
| **1** | **2** | **3** |
| Plastik material və dənəvər xammalı | Plastik kütlələrin sıxlığının yoxlanılması | 00.00.0000-c_ il tarixli XXX-0000 nömrəli sənəd |

4.9. Əgər bir standart birdən çox sınağı əhatə edirsə və laboratoriya bu standartda olan bütün sınaqları həyata keçirə bilirsə, tək standartın işarəsini yazmaq kifayətdir.

| **Sınağı aparılan məhsulun/materialın adı** *Materials/Products tested* | **Sınağın adı** *Type of test* | **Sınaq Metodu (Milli, Beynəlxalq Standartlar, qeyri-standart metodlar)** *Test methods (National, International Standards, non-standard methods)* |
|---|---|---|
| **1** | **2** | **3** |
| Beton qarışıqları | Orta sıxlığın təyini | ГОСТ 10181-2014 |
| | Plastikliyin təyini | |

4.10. Əgər laboratoriya bu sınaqlardan birini və ya bir neçəsini həyata keçirə bilirsə, standartın bu sınaqların göstərildiyi bəndləri bu bölümdə qeyd edilməli, həmin sınaqlar “Sınağın adı” bölümündə aydın şəkildə göstərilməlidir.

| **Sınağı aparılan məhsulun/materialın adı** *Materials/Products tested* | **Sınağın adı** *Type of test* | **Sınaq Metodu (Milli, Beynəlxalq Standartlar, qeyri-standart metodlar)** *Test methods (National, International Standards, non-standard methods)* |
|---|---|---|
| **1** | **2** | **3** |
| Süxurlar | Nəmliyin təyini | ГОСТ 5180 -2015 bənd 5 |

4.11. Fərqli standartlarda eyni məhsula aid olan eyni adlı sınaqlar göstərilibsə, bu bölmədə həmin standartlar qruplaşdırılıb yazıla bilər (Məsələn: AZS, ГОСТ, EN, ASTM, ISO və s). Məsələn:

| **Sınağı aparılan məhsulun/materialın adı**<br>*Materials/Products tested* | **Sınağın adı**<br>*Type of test* | **Sınaq Metodu (Milli, Beynəlxalq Standartlar, qeyri-standart metodlar)**<br>*Test methods (National, International Standards, non-standard methods)* |
|---|---|---|
| **1** | **2** | **3** |
| Beton qarışığı | Orta sıxlığın təyini | AZS 529-2011, ГОСТ 10181-2014, ASTM C94/C94M, ISO 1920, BS 1881, EN 12350 |

## 5. TƏLİMATDA EDİLMİŞ DƏYİŞİKLİKLƏR

| Dəyişiklik №si | Səhifə №si | Dəyişikliyin tarixi | Dəyişiklik səbəbi |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |